Azərbaycan Dövlət İqtisad Universiteti

İQTİSADÇI

№82 (862)

Oktyabr 2015

UNEC Avropa tədqiqatlar məkanına doğru addım atır

Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) rektoru, professor Ədalət Muradov "Türk univesitetləri Avropa tədqiqat məkanında" mövzusunda keçirilən konfransda iştirak edib. Rektor Ə.Muradov Ankara şəhərində keçirilən tədbirə təşkilatçı qismində çıxış edən Türkiyənin Orta Doğu Texniki Universitetinin rektoru, professor Ahmet Acarın dəvəti ilə qatılıb.

Orta Doğu Texniki Universiteti, Boğaziçi Universiteti, Bilkent Universiteti, İstanbul Texniki Universiteti, Koç Universiteti, Sabancı Universiteti, Türkiyə Elmi və Texnoloji Tədqiqat Şurası (TÜBİTAK) və Avropa Komissiyasının təşkilatçılığı ilə keçirilən konfransda Avropa tədqiqat məkanının prioritetləri və istiqamətləri mövzusunda müzakirələr aparılıb. Tədbirdə Avropa Komissiyasının "Horizon 2020" elmi-tədqiqat və texnoloji inkişaf 8-ci çərçivə proqramı ətrafında məruzələr dinlənilib. İştirakçılar müasir Avropa tədqiqat məkanında mövcud olan problemləri və perspektivləri müzakirə edib, Avropa ölkələri arasında elmi araşdırmaların və informasiya mübadiləsinin daha sürətli və sıx olmasının vacibliyini vurğuladılar. Qeyd edək ki, bu postsovet məkanı, o cümlədən respublikamız üçün daha böyük önəm daşıyır, çünki uzun illər elmi bağları dağılan tədqiqat ocaqlarımız dünya elminin son nailiyyətləri, onların mahiyyəti və praktiki tətbiqi sahəsində həm müəyyən gerilik yaşamış, həm də aparıcı elmi informasiyalardan kənarda qalmışdılar. Dünyanın sürətli inkişafı şəraitində bu fərqi aradan götürmək istiqamətində çox gərgin və məqsədyönlü işləmək lazımdır. UNEC-in Avropa tədqiqatlar məkanına inteqrasiyası baxımından əhəmiyyət kəsb edən bu tədbirdə rektor Ə.Muradov Boğaziçi Universitetinin, Sabancı Universitetinin, Koç Universitetinin, Orta Doğu Texniki Universitetinin, Bilkent Universitetinin, İstanbul Texniki Universitetinin rektorları ilə görüşüb, universitetimizin bütün sahələrdə fəal əməkdaşlığa hazır olduğunu, ali təhsil müəssisəmizdə həyata keçirilən köklü islahatlardan danışıb. Rektor Ə. Muradov Türkiyəyə səfəri zamanı Orta Doğu Texniki Universitetinin Texnoparkını da ziyarət edib. Görüşdə Texnoparkın fəaliyyət mexanizminin nüansları və təkmilləşdirilmə perspektivləri barədə informasiya mübadiləsi aparılıb. Kembric Universitetinin İnsan Resursları Departamentinin direktoru, xanım Şeyla Qupta ilə görüşdə əməkdaşlıq imkanlarına dair müzakirələr aparılıb.

MÜƏLLİMLƏR – GƏLƏCƏK MİLLƏTİN MEMARLARI

Gələcək millətin memarı olan müəllimlər hər birimizin həyatında və qəlbində dərin izlər buraxan müqəddəs peşə sahibləridir. Hər bir cəmiyyətdə yüksək mənəvi dəyərə malik olan müəllimə verilən qiymət nə qədər yüksək olsa da,bir o qədər kifayətsizdir.

1966-cı ildən YUNESKO-nun qərarı ilə hər il, oktyabr ayının 5-i dünya müəllimlər günü kimi qeyd olunur.

Ölkəmizdə isə bu bayram 1993-cü ildən qeyd olunmaga başlayıb. Ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi bütün illərdə bu şərəfli peşəyə verdiyi yüksək qiymət və göstərdiyi xüsusi qayğı nəticəsində müəllim adının bu gün cəmiyyətimizdə önəmli bir yeri formalaşmışdır.

Ali təhsil ocagımızda da daima professor-müəllim heyətinə diqqət və qayğı ilə yanaşılıb. Rektor, professor Ədalət Muradov müəllimlərin həm maddi durumu, həm iş şəraitlərinin yaxşılaşdırılması, həmçinin mənəvi stimullaşdırılması istiqamətlərində silsilə tədbirlər həyata keçirməkdədir. Müəllimlərin elmi inkişafı, öz sahələrində peşəkarlıqlarını artırmaları üçün çoxşaxəli proqram reallaşdırılır.

Oktyabr ayının 5-də Azərbaycan Dövlət İqtisad Universitetində müəllimlər günü də əvvəlki illərdən fərqli olaraq, daha təmtəraqlı, xüsusi tədbirlə qeyd edildi. Tədbiri Ümummilli Lider Heydər Əliyevin "Mən dünyada müəllimdən yüksək ad tanımıram"fikri ilə acan UNEC-in rektoru, professor Ədalət Muradov bu gün də ölkəmizdə təhsilin inkişafı ilə baglı həyata kecirilən kompleks tədbirlərin və Prezident İlham Əliyevin təhsil işçilərinə göstərdiyi xüsusi qayğını qeyd edərək, UNEC-in müəllim heyətini də bu xüsusi gün münasibətilə təbrik etmişdir.

Sonda universitetin ictimai həyatında fəal iştirak etdiyinə görə UNEC-in 45 müəllimi fəxri fərman, təşəkkürnamə və mükafatlarla təltif edilmişdir.

Türk dünyası XXI əsrdə öz sözünü elm və təhsili ilə deyəcək

28-30 oktyabr tarixlərində Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) XIII Beynəlxalq Türk Dünyası İctimai Elmlər Konqresi uğurla həyata keçirildi.

Tədbirin açılışında rektor, professor Ədalət Muradov bildirdi ki, son dövrlərdə respublikamızın liberal bazar iqtisadiyyatının inkişafi fonunda çox ciddi tədbirlər həyata keçirilir. Ölkəmiz Prezident İlham Əliyevin neftsiz iqtisadiyyat qurmaq strategiyasının ən ciddi mərhələsinə qədəm qoyub. Azərbaycanın gələcəyini təmin edə biləcək uğurlu siyasətinin ən vacib elementi təhsildir. Təsadüfi deyildir ki, ölkə başçısı İlham Əliyev ikinci dəfə prezident seçildikdən sonra imzaladığı ilk sənəd Azərbaycan Respublikasında ali təhsilin inkişafına dair dövlət strategiyası olub. Bu da o deməkdir ki, ölkə başçısı qara qızılın insan kapitalına çevrilməsini öz siyasətinin ən vacib hissəsi sayır və bununla bağlı təhsil ictimaiyyəti qarşısında çox ciddi tələblər irəli sürür. UNEC bu tələblərin icra edilməsi baxımından öz üzərinə düşən bütün öhdəlikləri yerinə yetirmək üçün əlindən gələni etməyə hazırdır.

Təhsil Nazirliyinin Aparat rəhbərinin müavini Yaqub Piriyev təhsil naziri Mikayıl Cabbarovun konqres iştirakçılarına ünvanladığı müraciətini səsləndirdi. Müraciətdə bildirilir ki, müasir dünyada siyasi, iqtisadi və informasiya sahələrində rəqabətin gücləndiyi, təbii resursların kəskin azaldığı və ekoloji balansın pozulduğu bir dövrdə elm və təhsilin rolu surətlə artmaqdadır. Qlobal problemlərin xarakterinin dəyişməsi onların həllində kollektiv intellektə və ortaq səylərə əsaslanmağı gündəmə gətirmişdir. Hazırda dunyada müxtəlif region dövlətlərinin qarşısında duran çağırışlar, sülhün və sabitliyin bərqərar olunması ciddi ekspert təhlilləri və inkisaf yollarının axtarışını tələb edir. Bu baxımdan Beynəlxalq Türk Dünyası İctimai Elmlər Konqresinin fəaliyyati xüsusi əhəmiyyət kəsb edir.

Türkiyənin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri İsmail Alper Coşkun çıxışında Azərbaycan-Türkiyə münasibətlərinə diqqət çəkərək, bildirib ki, Azərbaycanın on minə yaxın tələbəsi Türkiyədə ali təhsil alır. Azərbaycanda isə minlərlə Türkiyə vətəndaşı təhsil alır. Türkiyənin 2600-ə qədər şirkəti Azərbaycanda, minə yaxın Azərbaycan şirkəti isə Türkiyədə fəaliyyət göstərir. Bir sözlə, hələ müstəqilliyinin 30-cu ilini qeyd etməyən Azərbaycan yaxın zamanlarda Türkiyəyə ən çox investisiya yatıran ölkə olmağa namizəddir.

Türk Dünyası Araşdırmalar Vəqfinin prezidenti Közhan Yazqan Türkiyə-Azərbaycan iqtisadi münasibətlərinin yüksək səviyyədə olduğunu bildirdi.

XIII Beynəlxalq Türk Dünyası İctimai Elmlər Konqresində dünyanın 12 ölkəsindən 250-ə yaxın elm adamı, həmçinin 10-a yaxın xarici universitet rektoru iştirak etmişdi. İctimai elmlər sahəsində özünəməxsus yeri olan ənənəvi tədbirdə 230 elmi işin məruzəsi və müzakirəsi baş tutdu.

Konqres Azərbaycan Dövlət İqtisad Universiteti, Türk dövlətlərinin tanınmış ali məktəbləri olan İstanbul Universiteti (Türkiyə), Qazi Universiteti (Türkiyə), Sakarya Universiteti (Türkiyə), Uludağ Universiteti (Türkiyə), Cəlal Bayar Universiteti (Türkiyə), Bülent Ecevit Universiteti (Türkiyə), Giresun Universiteti (Türkiyə), Nevşehir Hacı Bektaş Veli Universiteti (Türkiyə), Qızıl Orda Korkut Ata Dövlət Universiteti (Qazaxıstan), Miras Universiteti (Qazaxıstan), İqtisadiyyat və Biznes Universiteti (Qırğızıstan), Beynəlxalq Vizyon Universiteti (Makedoniya) və Tbilisi Dövlət Universitetinin (Gürcüstan) təşkilatçılığı ilə keçirilmişdi. İştirakçılar müzakirə edilən bütün elmi məqalələrin kitab formasında çap olunacağı qərarını aldılar.

Tədbirin yüksək səviyyədə təşkilinə görə, Azərbaycan Dövlət İqtisad Universitetinə, xüsusən Türk dünyası işlətmə fakültəsinin professor-müəllim heyətinə və könüllü tələbələrə təşəkkür edildi.

Beynəlxalq Türk Dünyası İctimai Elmlər Konqresinin növbəti toplantısının 2016-cı ildə Türkmənistanda keçiriləcəyi nəzərdə tutulub.

HƏR YENİLİYİMİZ SİZLƏR, TƏLƏBƏLƏR ÜÇÜNDÜR

Universitetin rektoru, professor Ədalət Muradov yeni tədris ilində hər fakültənin birinci kurs tələbələri ilə ayrı-ayrılıqda görüşlər keçirir, həm ümumən universitetdə gedən islahatlar və yeniliklər barədə məlumat verir, həm də hər fakültədə gözlənilən innovativ tədbirlər, tədris prosesinin təkmilləşməsi istiqamətində atılan və atılacaq addımlardan danışır.

Bildirilir ki, UNEC-də həyata keçirilən hər bir yenilik məhz tələbələr üçündür. Universitetin nüfuzunun yüksəldilməsində tələbə və müəllim heyətinin əhəmiyyətindən danışan rektor qeyd edib ki, UNEC qısa zaman çərçivəsində dünya səviyyəli universitet olmalıdır. Ə.Muradov beynəlxalq əlaqələr sahəsindəki uğurları xüsusi vurğulayıb. O, nüfuzlu London Universitetinin London İqtisadiyyat Məktəbinin diplomunun UNEC-də almaq imkanının yaradılmasını tələbələr üçün geniş imkanlar yaratdığını qeyd edib. Rektor müasir texnologiyaların universitetdə tətbiqindən danışarkən "Elektron universitet" platforması və "Elektron sənəd dövriyyəsi"ndən söz açıb. O, elektron universitet platformasının mahiyyətini açıqlayarkən, tələbələ biliyinin obyektiv qiymətləndirilməsinin əsas olduğunu qeyd edib. Rektor tələbələri universitetin ictimai həyatında fəal olmağa, asudə vaxtın səmərəli keçirilməsində yaxından iştirak etməyə çağırıb. Yaradıcılıq mərkəzində fəaliyyət göstərən dərnəklərə qoşulmağı tövsiyə edən rektor, həmçinin Radio UNEC-də tələbə təşəbbüslərinin həyata keçirilməsi üçün şəraitin yaradıldığını bildirib. Qeyd edib ki, tələbələr onları narahat edən problemlər və təklifləri ilə bağlı rektorun şəxsi facebook səhifəsinə yaza bilərlər. Ə.Muradov dəyişikliklərin bir məqsədə xidmət etdiyini qeyd edib: "UNEC-də əmək bazarının tələblərinə uyğun kadrların hazırlaması". Rektor universitet məzunlarının 80 faizinin universiteti bitirdiyi ildən işlə təmin edilməsinə əmin olduğunu qeyd edib. Bunun üçün Ə.Muradov tələbələrə yaxşı oxumağı və dərsə davamiyyətlərini artırmağı tövsiyyə edib.

Rektor universitetdə müəllim-tələbə münasibətinin şəffaf olmasını xüsusi vurğulayıb. Bildirib ki, tələbə universitetin "güzgüsüdür". Biz universitetdə bilikli, savadlı tələbə ilə yanaşı, şəxsiyyət yetişdiririk. Müəllim və tələbələr qarşılıqlı hörmət prinsiplərinə əməl etməlidir. Universitetdə ilk dəfə olaraq kollokviumların yeni elektron sistemi vasitəsilə həyata keçirildiyini deyən rektor əlavə edib ki, yeniliyin tətbiqində əsas məqsəd tələbə biliyinin qiymətləndirilməsində obyektivliyin və şəffaflığın təmin edilməsidir.

Bilikli tələbələrin stimullaşdırılmasından danışan Ə.Muradov qeyd edib ki, universitetə 600-dən yuxarı bal toplayaraq qəbul olunan tələbələrə hər ay 100 manat təqaüd verilir və imtahanlarda yüksək nəticələr əldə edən tələbələrin stimullaşdırılması prosesi davam edəcək. Rektor bu yeniliklərdən yararlanmaq üçün tələbələrin dərslərinə ciddi yanaşmalarını tövsiyə edib.

Tələbələrə asudə vaxtlarını daha səmərəli keçirmələri üçün UNEC-də yaradılan "Yaradıcılıq Mərkəzi"nin, Radio UNEC-in, idman zallarının imkanlarından yararlanmaq məsləhət görülüb.

Qiyabi təhsil alan tələbələrlə görüşlərdə rektor xüsusilə vurğuladı ki, artıq qiyabi və əyani tələbələr arasında tədrisin keyfiyyəti nöqteyi-nəzərindən fərq qoyulmayacaq, bütün tələbələrə universitetdə bərabər şəraitin yaradıldığını açıqladı.

Ədalət müəllimin magistrlərlə görüşü fərqli xarakter daşıyırdı. Rektor ilk olaraq universitetin magistratura səviyyəsində tədrisin hazırki səviyyəsinə münasibətini bildirib. "Bir çox hallarda magistraturada tədris bakalavr səviyyəsindəki tədrisin davamıdır" – deyən universitet rəhbəri burada tədris edilən əksər fənlərin əmək bazarının tələblərinə cavab vermədiyini də bildirib. Rektor daha sonra UNEC-in magistratura ilə bağlı hədəflərindən danışıb. Bildirib ki, magistraturada fənlərin sayı əhəmiyyətli dərəcədə azaldılaraq, bazarın tələblərinə uyğunlaşdırılmalıdır. "Artıq ixtisasların siyahısına və tədris proqramlarına baxılır"- deyən rektor prosesin yekunlaşmaq üzrə olduğunu bildirib. Əlavə edib ki, magistratura səviyyəsində tədrisə dair yeni standartlar hazırlanır. Daha sonra magistrlar onları narahat edən sualları verib və təkliflərini rektora çatdırıblar. Tələbələr müəllimlər qarşısında qoyulan tələblərin artırılmasını istəyiblər. Təkliflərin dəyərləndiriləcəyini bildirən rektor tədbir zamanı aidiyyatı struktur rəhbərlərinə tapşırıq verərək, dekabr ayında, tələbələr arasında məmnuniyyət sorğusunun keçirilməsini tapşırıb. Bildirib ki, bu sorğular əsasında tələbələr dərs deyəcək müəllimləri özləri seçə biləcəklər.

Polşalı həmkarlarımızla əməkdaşlığımız güclənir



Oktyabrın 12-də Polşanın Katoviç İqtisad Universitetinin nümayəndələri Universitetimizin qonağı olub.

Görüşdə UNEC-lə Katoviç İqtisad Universiteti arasında birgə layihələrin qurulması haqqında müzakirələr aparılıb. Erasmus+ proqramları, tələbə mübadiləsi, ikili diplomların işlənməsi, gələcək əməkdaşlıq istiqamətləri və digər məsələlər müzakirə edilib.

15 minə yaxın yerli və əcnəbi tələbə 4 fakültədə təhsil alırlar: iqtisadiyyat, maliyyə-sığorta, informatika-kommunikasiya, idarəetmə. Universitet bir çox beynəlxalq proqramların fəal iştirakçısıdır.

Beynəlxalq mühasiblər birliyi MBA-ya yeni imkanlar açır

ACCA (the Association of Chartered Certified Accountants) – "Diplomlu və Sertifikatlı Mühasiblər Assosiasiyası" - mühasibat ucotu sahəsində dünyanın ən iri və sürətlə inkişaf edən beynəlxalq təşkilatlarından biridir. Bir əsrdən çox yaşı olan birliyin 500 mindən çox üzvü var. Təşkilat dünyanın 170 ölkəsində öz nüfuzunu qoruyub saxlamaqdadır.

ACCA-nın məqsədi mühasibat ucotu sahəsində peşəkar bilikləri və vərdişləri, həmçinini peşəkar dəyərləri təmin etməkdir. ACCA akkreditasiyasına malik olmaq maliyyə mütəxəssislərinə istənilən sahədə uğurlu karyera qurmağa yardımçı olur: dövlət, yaxud özəl sektorda, mühasibat şirkətində, xarici şirkətdə, yaxud şəxsi bizneslə məşğul olmada ACCA səviyyəsi Beynəlxalq mühasiblər Federasiyasının (İFAC) mühasibat, mühasibat ucotu sahəsində beynəlxalq tədris standartlarına müvafiqdir. ACCA proqramı əsas diqqəti peşəkar dəyərlərə, etika və idarəetmə məsələlərinə yönəldir. ACCA proqramı ilk növbədə biznesin istənilən sektorunda yüksəkixtisaslı mütəxəssis olmağa səy göstərənlərə ünvanlanıb. Sertifikatın vətəni Böyük Britaniyadır.

Müəllim əməyini əbədiləşdirən ölkələr

Beynəlxalq Müəllimlər günü ilə bağlı ənənəvidən fərqli bir yazı üçün axtarışlarım zamanı dünyada müəllimlərin şərəfinə ucaldılan abidələr diqqətimi çəkdi. Həm heykəllərin özləri, həm də respublikamızda belə bir abidənin olmaması məqaləmi bu mövzuya istiqamətləndirdi.

SSRİ-də bu tipli abidələrin ilki kiçik Toropets şəhərində qoyulub – 1972-ci ildə. Layihənin təşəbbüskarları qismində 1938-ci ilin məktəb məzunları çıxış etdilər: "Avtoeksportun" sədri və uzaq səyahətlər üzrə ixtisaslaşmış I dərəcəli kapitan. Əldə etdikləri qlobal imkanlarla və "cırtdan" Toropetsin hər mənada kiçikliyi və lokallığı arasında təzad onlara impuls verən müəllimlərin xatirəsini əbədiləşdirməyə sövq etdi.

Düzdür, Saratovdakı abidə Toropetsdəki ilə müqayisədə daha qədimidir – o, inqilabdan öncə yaradılıb. Lakin buradakı heykəl sadəcə rus çarı II Aleksandrın şərəfinə ucaldılmış heykəllər kompozisiyasının bir parçasıdır. Çarın özü və yaxınlarının heykəlləri məhv edilsə də, monument kompleksinini bu parçası salamat qalmış və onilliklər sonra Saratovda yerləşdirilmişdi.

Həm İsraildə, həm Polşada müəllim və şagirdlər kompozisiyaların baş qəhrəmanı – Yanuş Korçakın qəhrəmanlığı daima hamını heyrətləndirir. 1942-ci ildə polyak əsilli bu müəllim ölüm düşərgəsinə göndərilən kiçikyaşlı şagirdlərindən ayrılmaq istəməyərək, könüllü olaraq onlarla birgə qaz kamerasında həlak oldu.

Varşava şəhərindəki müəllimə həsr edilmiş digər bir abidə əvvəlcə sual doğurur: axı bu daş parçası tutan üryan kişinin təhsilə nə aidiyyatı var? Sən demə, abidə dilənçi əməkhaqqı şəraitində çalışan müəllimlərin qul əməyinin rəmzidir. Allahlar tərəfindən daima dağa daş qaldırmağa (zirvəyə çatanda daş yenidən yerə düşür) yunan mifologiyasının qəhrəmanı Sizif tək müəllimlər günbəgün yeni nəsli biliklərin zirvəsinə ucaldır, sonra yenidən sıfırdan başlamış olurlar.

Biz dünyanın müxtəlif yerlərində olan abidələri əhatələməyə çalışdıq. Lakin bir təhsil müəssisəsinin əməkdaşları kimi, Azərbaycanda müəllimlərin şərəfinə monumental abidənin olmamasına heyfsiləndik. Və düşündük ki, niyə belə bir abidə İqtisad Universitetinin həyətində yaradılmasın? Bu həm simvolik bir müəllim obrazı ola bilər, həm də konkret bir personaj – məsələn, Cəbiş müəllim.

Oxucularımızın bu məsələyə münasibətini öyrənmək istərdik.

Belçika

Ufa

Türkiyə

Toropets

Saratov

Finlandiya

Varşava


Varşava

Qüds

Xarkov

İspaniya

Oqayo

Belə ömür payı hər kəsə nəsib olmur

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 9 oktyabr 2015-ci il tarixində imzalanan sərəncamına əsasən, Azərbaycan Dövlət İqtisad Universitetinin professoru Telman Hüseynov Azərbaycan elminin inkişafında və yüksək kadrların hazırlanmasında xidmətlərinə görə "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür.

Əməkdar elm xadimi, professor Telman Hüseynov haqqında yazı hazırlamaq tapşırığı almışdıq. Baxmayaraq ki, universitetin saytında Telman müəllimin tərcümeyi-halı, elmi yaradıcılığı haqqında hərtərəfli və dolğun məlumat verilmişdi. Və hətta alim haqqında geniş müsahibə də dərc olunmuşdu. Biz isə bu mövzuya oradakı faktlara əsaslanıb da, bir qədər başqa yönümdən yanaşmaq istədik. Düşündük ki, əsasən onun yüksək insani keyfiyyətlərindən, hər kəsə bəlli olmayan məqamlarından, yaradıcı ömrünü iqtisadçı-mütəxəssis kadrların hazırlanmasına həsr edən görkəmli alim və pedaqoqun tələbələrə, müəllimlərə göstərdiyi qayğıkeş münasibətindən və sairədən söhbət açaq…

Telman Əlihüseyn oğlu Hüseynov 1934-cü il dekabrın 28-də Cəbrayıl rayonunun Quycaq kəndində anadan olub. 1951-ci ildə doğma rayonunda orta məktəbi bitirdikdən sonra əvvəlcə «Neft və qaz texnologiyası» ixtisası üzrə Bakı Neft Texnologiyası Texnikumunda təhsil alıb, 1955-ci ildə isə K.Marks adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutuna daxil olub. Sonradan AzXTİ Azərbaycan Dövlət Universitetinə birləşdirildiyindən T.Hüseynov 1959-cu ildə artıq universitetin «Sənayenin iqtisadiyyatı» ixtisasını fərqlənmə diplomu ilə bitirib. Qeyd edək ki, o elmi-tədqiqat xarakterli işlərə hələ institutda təhsil aldığı illərdən meyl göstərəmyə başlayıb.

Ali təhsildən sonra əmək fəaliyyətini bir çox yerdə davam etdirən T.Hüseynov 1962-ci ildə Respublika Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunun aspiranturasına daxil olmuş, həmin vaxtdan etibarən həm də Azərbaycan Dövlət Universitetində dərs deməyə başlamışdır. Bu məqamdan etibarən T.Hüseynovun yüksək potensialı və yaradıcılıq qabiliyyəti bütünlüklə elmi axtarışlar və pedaqoji iş yönümündə istiqamətlənmişdir.

Azərbaycan Dövlət İqtisad Universitetindəki fəaliyyəti dövründə T.Hüseynov dəfələrlə kafedra müdiri, dekan, 1986-cı ildə D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutu H.Voznesenski adına Leninqrad Maliyyə İqtisad İnstitutunun filialına çevrildikdən sona, 1989-cu ildə filialın direktorunun tədris işləri üzrə müavini, institutun statusu bərpa edildikdən sonar, əvvəlcə tədris işləri üzrə prorektor, bir qədər sonra isə birinci prorektor vəzifələrində çalışmağa başladı. Və nəhayət ali təhsil ocağına universitet statusu verilərək digər iqtisadiyönümlü institutlar ona birləşdirildikdən sonra professor T.Hüseynov ADİU-nun tədris işləri üzrə prorektoru vəzifəsini icra etməyə başladı. Bütün bunlarla yanaşı Telman müəllim bir müddət universitetə bacarıqla rəhbərlik də etmişdir...

Qocaman alim T.Hüseynov hazırda Azərbaycan Dövlət İqtisad Universitetinin "Müəssisənin iqtisadiyyatı" kafedrasının məsləhətçi professorudur.

…1989-cü il idi. Universitetdə yenicə işə başlamışdım. Jurnalist peşəmlə əlaqədar universitetin bütün tədbirlərində iştirak edir, qəzetə materiallar hazırlayırdım. Və təbii ki, həmin tədbirlərdə universitetin rəhbərlərindən biri kimi Telman müəllim də iştirak edir, oradakı təmkinli çıxışları, dəyərli məsləhətləri, yüksək mədəniyyəti, ədalətliliyi, eyni zamanda prinsipiallığı ilə diqqətimi cəlb edirdi.

Təsadüf elə gətirdi ki, işimlə əlaqədar bir dəfə Telman müəllimin yanına getməli oldum. Onun zəhmli baxışları ilə qarşılaşdıqda həyacanımdan sözümü deməyə çətinlik çəkirdim. O zəhmli, ciddi görkəmi ilə adamı həyəcanlandıran Telman müəllim bir anın içərisində aradakı gərginliyi elə asanlıqla, elə səmimiyyətlə dəf etdi ki, nə vaxt söhbətə başladığımı, suallarımı verdiyimi, lazımi cavablarımı alıb geri qayıtdığımı özüm belə hiss etmədim.

Sonradan dəfələrlə belə görüşlərimiz oldu. Və mən Telman müəllimi hər zaman nüfuzlu, yüksək intellektli alim, hörmətli pedaqoq, qayğıkeş insan, gözəl təşkilatçı kimi gördüm və hər zaman yaddaşımda belə qaldı.

Telman Hüseynov haqqında onlarca tələbələri, dostları, iş yoldaşları, universitetin professor-müəllimləri, digər hörmətli şəxslər öz ürək sözlərini söyləmiş ona münasibətlərini bildirmişlər. İstədik ki, onlardan bir neçəsinin fikirləri ilə sizləri də tanış edək.

Mətanət Xıdırova– T.Hüseynovun keçmiş diplomçusu və aspirantı.

- Telman müəllim mənəviyyatın elə bir ucalığındadır ki, ondan yuxarıda ancaq tanrımız bərqərardır. Məhz Telman müəllim və onun kimi insanlar haqqında deyirlər ki, dünya, həyat yaxşı insanların çiynində dayanır. Bəli, dünyanı, həyatı çiynində saxlayanlar arasında ən şərəfli yerlərdən biri Telman müəllimə məxsusdur.

Xanhüseyn Kazımlı-iqtisad elmləri doktoru, professor, millət vəkili.

- Telman müəllim xoşbəxt adamdır. Həyatda hamının üzünə və gözünün içinə düz baxmaqla, başını hər kəsin qarşısında uca tutmağa haqqı vardır. Bunu o özü qazanmışdır. Xüsusilə ona görə xoşbəxtdir ki, o yalnız özünə güvənir. O istədiyi yüksəkliklərə qalxmaq potensialına, hər hansı fikri dəqiq, aydın cümlələrlə, ardıcıl olaraq istənilən auditoriyaya çatdırmaq imkanlarına malikdir.

Bəxtiyar Musayev–iqtisad elmləri namizədi.

-Qeyri-obyektivliklə qarşılaşdığım vaxt həmişə ona müraciət etmişəm. O mənə və bütün mənim kimi tələbələrinə həyatda mənəvi dayaq olub. Telman müəllim elə bir şəxsiyyətdir ki, Azərbaycanımıza xas olan bütün kişilik əlamətlərini özündə cəmləşdirib.

Mirdamət Sadıqov–iqtisad elmləri doktoru, professor.

- Mənim və mənim kimi yüzlərcə, minlərcə tələbələr yetişdirən hörmətli müəllimim. Siz təkcə ailəniz, uşaqlarınız üçün deyil, bütövlükdə iqtisad elmini tədris edənlər üçün, onu öyrənənlər üçün çox qiymətlisiniz və doğmasınız.

Telman İmanov-iqtisad elmləri namizədi.

- Telman müəllim iqtisadiyyatın ən yaxşı tədqiqatçılarından biridir. Onun hər bir yazısı öz dəsti-xətti ilə seçilən görkəmli bir alimin varlığından xəbər verir. Elmi axtarışlarında sələflərinin fikir və mülahizələrinə qayğı və ehtiramla yanaşan, varisliyi daim diqqət mərkəzində saxlayan bu insan, eyni zamanda özünün orijinal baxışlarını tutarlı elmi məntiq və dəlillər ilə əsaslandırmağı bacarır…

Bu siyahını istənilən qədər artırmaq da olardı. Düşündük ki, görünən dağa nə bələdçi.

Bu yazımda Telman müəllimin həyat və yaradıcılığı, elm aləmində qazandığı nailiyyətləri, onun haqqında hər zümrədən olan insanların söylədikləri fikirləri, xoş sözləri ilə dolu olan bir kitabdan istifadə etdim. Kitabı vərəqlədikcə bu böyük şəxsiyyətin necə dolu, zəngin həyat yaşadığının bir daha şahidi olursan. Bir anlıq xəyala dalıb düşünürsən, belə ömür payı hər kəsə nəsib olurmu? Əsla, yox. Belə ömür payı allahtalanın seçilmiş bəndələrinə nəsib olur. Bu bəndələrdən biri də, məhz, bizim sevimli, şahanə görkəmli, xoş xasiyyətli Telman müəllimimizdir.

Bu mənalı ömür payınızda həmişə belə qalın, Telman müəllim. Yazın, yaradın!

Tələbələrinizi, iqtsiadçılarınızı yeni-yeni dəyərli əsərlərinizlə sevindirin. Sizə can sağlığı və uzun ömür arzusuyla ...

Xatın Qocayeva.

Elanlar

Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Qımrıyeva Humay Şamil qızına verilən tələbə bileti itdiyi üçün etibatsız sayılır.

Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Əkbərov Tural Ağa oğluna verilən tələbə bileti itdiyi üçün etibatsız sayılır.

Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Mursəlov Manaf Rauf oğluna verilən tələbə bileti itdiyi üçün etibatsız sayılır.

Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Həsənova Ebru İsmayıl qızına verilən tələbə bileti itdiyi üçün etibatsız sayılır.

Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Həsənova Əfsanə Ramiz qızına verilən tələbə bileti itdiyi üçün etibatsız sayılır.

Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Ağazadə Xürrəm Eldar qızına verilən tələbə bileti itdiyi üçün etibatsız sayılır.

Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Qüdrətli Ayxan Azər oğluna verilən tələbə bileti itdiyi üçün etibatsız sayılır.

Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Məmmədov Səxavət Vilayət oğluna verilən tələbə bileti itdiyi üçün etibatsız sayılır.

Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Abbasov Rüfət Mustafa oğluna verilən tələbə bileti itdiyi üçün etibatsız sayılır.

Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Həsənova Aytən Tarzan qızına verilən tələbə bileti itdiyi üçün etibatsız sayılır.

Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Rəhimli Kənan Süleyman oğluna verilən tələbə bileti itdiyi üçün etibatsız sayılır.

Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Abdullayev Mirinal Mirrəcəb oğluna verilən tələbə bileti itdiyi üçün etibatsız sayılır.

Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Əsədov Sabir Osman oğluna verilən tələbə bileti itdiyi üçün etibatsız sayılır.

Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Əliyeva Ülkər Azər qızına verilən tələbə bileti itdiyi üçün etibatsız sayılır.

Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən İmaməliyeva Nəzrin Vüqar qızına verilən tələbə bileti itdiyi üçün etibatsız sayılır.

Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Nəzərova Gülcan Namaz qızına verilən tələbə bileti itdiyi üçün etibatsız sayılır.

Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Rəhimli Məleykəxanım Firdovsi qızına verilən tələbə bileti itdiyi üçün etibatsız sayılır.

Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Məmmədov Fuad Babək ogluna verilən tələbə bileti itdiyi üçün etibatsız sayılır.

Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Rüstəmli Mehriban Natiq qızına verilən tələbə bileti itdiyi üçün etibatsız sayılır.

Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Quliyev Tural Aydın ogluna verilən tələbə bileti itdiyi üçün etibatsız sayılır.

Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən Həsənov Vüqar İbiş ogluna verilən tələbə bileti itdiyi üçün etibatsız sayılır.

Baş redaktor: Anar Eyyubov
redaktor-korrektor
Xatın Qocayeva

Müxbir-İlahəxanım Həsənova
Səhifələyici-Turan Cavadova
Fotomüxbir R.Məmmədov, K. Cəlilov

Telefon: 4926819
Ünvan: Bakı 370001
İstiqlaliyyət küçəsi 6.

Lisenziya259
Sifariş 1673
Sayı 300